

❐ *Yer üzünə yeni – 2017-ci il gəlib. Dünyanın bir çox yerində insanlar dekabrın 31-dən yanvarın 1-nə keçən gecəni böyük sevinc və ümidlərlə qarşılayırlar. Onlar bu əziz gündə deyib-gülür, şənlənir, qonaq gedir, hədiyyələr verirlər. Küçələrdə, mənzillərdə yolkalar bəzədilir, uşaqların səbirsizliklə gözlədikləri Şaxta baba və Qar qız evlərin əziz qonaqlarına çevrilirlər.*

# 2017 – yeni ümidlər ili



Yeni il əsrlərdən bəri Azərbaycan xalqının da əziz bayramlarından biridir. Soydaşlarımız bu bayrama hər dəfə böyük şövqlə hazırlaşır, həvəslə bayram süfrələri açırlar. Açığını desək, artıq insanlarımızın əsl bayram əhval-ruhiyyəsini yaşamaları üçün ölkədə lazımi şərait yaradılıb. 2016-cı ildə Azərbaycanın müstəqillik qazanmasının 25-ci ili tamam olub. Yola saldığımız son illər ölkəmizin tarixində ciddi sosial-iqtisadi və mədəni uğurlarla yadda qalıb.

Yeni il bayramı ərəfəsində xalqımız başqa bir əziz bayramı 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü də böyük coşqu ilə qeyd edib. Belə günlərdə milli duyğu və düşüncələrimiz aşıb-daşır, arzu-diləklərimiz sabaha qanad açır.

Şübhəsiz ki, həmrəylik duyğusu bizi güclü edir, öyünc və sevincimiz həyat eşqimizi yüksəldir. Dünyanın müxtəlif guşələrinə səpələnmiş soydaşlarımız yenidən bir araya gələrək görülmüş işləri saf-çürük edir, gələcək üçün yeni planlar qururlar. Son illər Azərbaycan diaspor təşkilatları öz güclərini dünya türk təşkilatlarının gücünə qataraq daha da qüvvətləniblər və öz sözlərini daha cəsarətlə deyir, haqq səsimizin dünyada daha yüksəkdən səslənməsini təmin edirlər.

Bəli, bu gün eldə, obada, bütün Azərbaycanda bayram-bayrama qarışıb. Bayramınız mübarək, əziz dostlar, əziz həmvətənlər! İlləriniz bir-birindən uğurlu gəlsin!

## 2017-ci il Xoruz ilidir

Astrologiya ilə maraqlanan çoxsaylı insanları Yeni il ərəfəsində təzə ilin hansı heyvan üstə təhvil olacağı maraqlandırır. Bəri başdan qeyd edək ki, 2017-ci il Xoruz ilidir. Bəs bu il bizə nələr vəd edir?

Qədim Çin təqviminə görə, Xoruz ili 2017-ci ilin 28 yanvar tarixində Meymun ilini əvəz edəcək. 2017-ci il orijinal və enerji dolu il olacaq. Belə ki, Xoruz ev heyvanlarının lideri olduğu üçün bu ildə doğulan insanlar çox qürurlu, özünə arxayın və təkəbbürlüdürlər. Şüarları sədaqət, səmimiyyətdir. Hər zaman həqiqəti deyər və verdikləri sözləri tutarlar. Daim qarşılıqlı hörmət gözləyən bu ilin sahibləri mənfi cəhətlərinin ortaya çıxmasından çəkinərlər.

Xoruz ilində doğulan insanların ən güclü xüsusiyyətləri müşahidə qabiliyyətidir. Görəcəkləri işin hər detalını incələyərlər. Hətta onlar haqqında "çiynində də gözləri var" - deyilir. Heç bir şey onların diqqətindən qaçmaz. Sosialdırlar və iddialı işləri bacarmaq qabiliyyətinə malikdirlər.

Diqqət mərkəzində olmağı, təqdir edilməyi, təriflənməyi sevən bu ilin sahibləri zövqlüdürlər və yaxşı geyinməyi bacarırlar. Başqalarının görünüşünü dəyərləndirməyi sevərlər. Səyahətlər zamanı səxavətlə pul xərcləyərlər. Yeni tanışlıqlara daim meyllidirlər. Həddindən artıq nəzakətli davranışları onları ehtiraslı olmağa doğru aparar. Cəsur insanlardır və birinin köməyə ehtiyacı olduqda dərhal ora qaçarlar.

Tövsiyə almaqda çətinlik çəkərlər. Müstəqil təbiətli olmaları işdə davamlı olaraq öz inkişaflarını təmin etmələrini və öz mənfəətlərini qorumalarını təmin edər. Öz fikirlərinə, tənqidlərinə və seçimlərinə güvənərlər. Bəzən inadcıllıqları tuta bilər. İşdən yorulmaz və haqları uğrunda sona qədər mübarizə aparar. Xoruz ilində doğulan insanlar bəzən eqoist və öz fikirlərini qəbul etdirməyi sevsələr də, güvənilən və yaxşı vaxt keçirilən bir yoldaş olmağı da bacarırlar.

Xoruz çox romantikdir. Hədiyyələri sevər, bahalı brendləri isə xüsusilə. Daim əsl sevgini axtarar və sevdiyi insanlara sadiq olarlar. Xoruzlar dərin düşüncəli mütəfəkkir və istedadlı şəxsiyyətlərdir. Əməksevərdirlər, öz işlərinə sadiqdirlər, hətta gücləri çatmayan hər hansı bir vəzifəni də yerinə yetirməyə çalışırlar və baş tutmadıqda çox kədərlənirlər. Bəzən qəribəlikləri də olur, birdən-birə təmas yarada bilmirlər. Özlərini həmişə haqlı hesab edirlər və bəzən doğrudan da haqlı olurlar. Həyatda zaman-zaman gah uğurlar qazanır, gah da uğursuzluqlara məruz qalırlar. Xudpəsənd ola bilərlər, lakin həddən artıq açıqürəklidirlər. Çılğın və cəsur hərəkətləri ilə seçilirlər.

Tünd xasiyyətli Xoruz uca səslə gələn ilin parlaq və sürprizlərlə dolu olacağını xəbər verir. Şərqdə belə hesab edilir ki, Xoruz ili ümumilikdə hadisələri çətinləşdirməyən, öz yolu ilə gedən, öz firavanlığı uğrunda vicdanla çalışan, sözündə və əməlində sadiq olan bütün insanlar üçün əlverişli il olacaq.

Bundan başqa, bu il od ünsürü altında təhvil olunur. Bu isə o deməkdir ki, öz həyatınızın qaranlıq tərəflərindən azad olub işıq saçmaq, uğura və çiçəklənməyə mane olan problemlərdən xilas olmaq üçün çoxlu şansımız var.

## Bu il bizə nə vəd edir?

Rusiyalı astroloqlar 2017-ci ilin müxtəlif illərdə doğulanlarla bağlı proqnozunu hazırlayıblar. Həmin proqnozu təqdim edirik:

**Sıçan**

Bu ildə doğulanları bir çox əlverişli hadisə gözləyir və onlardan mütləq istifadə etmək lazımdır. O cümlədən, ümid etmək olar ki, onlar nəzərəçarpacaq maliyyə uğurları ilə qarşılaşacaqlar.

**Öküz**

Öküz ilindən olanları çoxlu sürpriz gözləyir. Baş verənlərin çoxu sizin üçün gözlənilməz ola bilər, lakin qətiyyən qorxmaq lazım deyil. Belə halların hər birində sehrli açar sizin üçün uğura yol açacaq.

**Pələng**

Pələng ilində doğulanlar həmişə dostlarının yardımına güvənə bilər. Problemlərdən çıxış yolu tapmaq və yaxşı dəstək almaq istəyirsinizsə, dərdlərinizi ilk növbədə sizə qarşı əsl sədaqət nümayiş etdirən şəxslərlə bölüşün.

**Əjdaha**

Əjdahalar Xoruz ilində özlərini yüksəkdə hiss edə biləcəklər. Sizi ən müxtəlif sahələrdə çox güclü irəliləyiş, uğur vəd edən layihələr, eləcə də uzun illər inkişaf və rifahınızı yaxşılaşdıra bilən işlər, xoş xəbərlər, nəhayət, firavanlıq gözləyir.

**İlan**

İlan ilində doğulanların qarşılarında bu il maraqlı karyera imkanları açılacaq. Qısası, Qırmızı Xoruz ili sizə yeni, daha nüfuzlu iş və ya daha yüksək vəzifə vəd edir.

**At**

At ilindən olanları bir neçə parlaq şəxsi nailiyyət gözləyir, maliyyə vəziyyətləri də yaxşılaşacaq. Amma yeniliklərlə (xüsusilə karyerada) rastlaşdıqda soyuq başla hərəkət etməyə hazırlaşın. Qələbənin sirrini belə ifadə etmək olar: incikliklərə uymamaq, əsəbiliyin öhdəsindən gəlmək və belə vəziyyətdə insanlara şər və böhtan atmamaq.

**Keçi (Qoyun)**

Keçi ilində doğulan insanlar büdcəsinə xüsusi diqqət yetirməlidir. Qırmızı Xoruz ili sizin üçün əhəmiyyətli xərclər planlaşdırıb, onlarla yaxınlarınız və dostlarınız razılaşmaya bilər. Dostların məsləhətindən istifadə edib-etməməyiniz öz qərarınızdır, lakin bu məsələni böyüdüb mübahisəyə çevirməməyə çalışın və unutmayın ki, son qərarlarınıza görə məsuliyyət nəticədə bütünlüklə öz üzərinizə düşür.

**Meymun**

Bu il Meymun ilindən olanlar üçün bir çox sahələrdə müsbət gözləntilər olacağını vəd edir. Lakin hər şeydən çox onları şəxsi həyatda baş verən dəyişikliklər sevindirəcək. Odur ki, sevməyə hazırlaşın, ancaq ağlınızı itirməyin!

***Xoruz***

Xoruz ilində doğulanlar sözün əsl mənasında özünü ev sahibi kimi hiss edə biləcəklər. İstəsəniz, istənilən məsələni öz xeyrinizə yönəltmək və həll etmək mümkün olacaq. Üstəlik, gücünüz artacaq və gözlənilməz anda nüfuzlu şəxslərin himayəsinə etibar edə biləcəksiniz.

**Pişik (Dovşan)**

Bu heyvanlardan hansına daha çox daxili yaxınlıq hiss etmənizə baxmayaraq, bu il sizə həssas olmaq, zərurət olduqda isə cəld qaçmaq bacarığı lazım olacaq. Bəzən Qırmızı Xoruz ili öz davakar xarakterini göstərir. Çağırışlara hazır ol, xüsusilə isə maddi baxımdan.

**Donuz (Qaban)**

Donuz ilində doğulanların səbir və inadkarlıq kimi məziyyətləri var. Bu keyfiyyətlər Xoruz ilində xüsusilə iş və maliyyə sahəsində risk edənlərə çox lazım olacaq.

**İt**

İt ilindən olanlara şəxsi məsələlərə xüsusi diqqət yetirmək lazım olacaq. Söhbət həm sağlamlıq, həm də sevgi münasibətlərindən gedə bilər. Qırmızı Xoruz ilinin xoşagəlməz sürprizlər gətirməsini istəmirsinizsə, özünüzə, öz maraqlarınıza və ehtiyaclarınıza daha çox vaxt sərf etməyə çalışın.

## Yeni ilin qədim tarixi var

Belə fərziyyələr var ki, Yeni il bayramı ilk dəfə 5 min il bundan əvvəl Mesopotamiyada qeyd edilib. Bu qədim ölkə şumer, babil, assur kimi mədəniyyətlərin mərkəzi kimi məşhurdur. Mesopotamiyada əkin işləri martın sonunda, Dəclə və Fərat çaylarında su artandan sonra başlanırdı. Bu hadisə 12 gün ərzində təntənəli yürüşlərlə, şənliklərlə qeyd edilirdi. Qədim yəhudilər Yeni ilin bayram edilməsini babillilərdən, yunanlar isə yəhudilərdən öyrənmiş, Qərbi Avropaya da bu ənənə yunanlardan keçmişdir. Qədim romalılar hələ bizim eradan əvvəl Yeni il gecələrində səhərə qədər şənlik edir, tanış və dostlarına xoşbəxtlik diləyirdilər. Arxeoloqlar qədim Misir piramidalarında qazıntı işləri zamanı üzərində "Yeni ilin başlanğıcı" sözü yazılmış qab tapmışdılar. Qədim Misirdə Yeni il Nil çayı daşan zaman (təqribən sentyabrın axırında) bayram edilirdi. Nilin daşması çox mühüm hadisə hesab olunurdu. Çayın daşması sayəsində susuz səhraların cana gəlməsi bol taxıl məhsulu əldə olunacağından xəbər verirdi. İnsanlar Yeni ildə Tanrı Amonun, onun arvadının və oğlunun kiçik heykəllərini minnətdarlıq əlaməti olaraq qayığa qoyurdular. Qayıq Nil çayı boyu çal-çağırın müşayiəti ilə bir ay üzəndən sonra heykəlcikləri yenidən məbədə qoyurdular.

Romalılar imperator Yuli Sezarın yeni təqvimi tətbiq etməsinədək Yeni ili martın əvvəlində bayram edirdilər. Sezar eramızdan əvvəl 45-ci ildə Misirdə olarkən bu ölkə sakinlərinin təqvimi ilə tanış olmuşdu. Bu təqvim 365 gündən və 12 aydan ibarət idi. Salnaməçilər yazırlar ki, Sezar bu tanışlıqdan sonra dərhal yeni təqvimin hazırlanması barədə əmr vermişdi.

O da bəllidir ki, bəzi xalqlar Yeni il bayramını müxtəlif vaxtlarda qeyd edirdilər. Məsələn, qədim Yunanıstanda bayram ilin ən uzun gününə - 22 iyuna düşürdü. İngiltərədə isə bayram şənliklərinə baharın ilk günündə - martın 1-də başlayırdılar. Fransada Yeni ilin gəlişini Böyük İnqilab Günü, yəni Respublikanın yarandığı 22 sentyabrda bayram edirdilər.

I Pyotr 1699-cu ildə Avropa səyahətindən qayıdandan sonra Yeni ilin yanvarın 1-dən hesablanması barədə fərman imzalamışdı. İmperator Yeni il şərəfinə yolkalar bəzədilməsi üçün göstəriş vermişdi. Yeni il axşamı evlərində yır-yığış edən rus qızları mizin altını çox səylə ələk-vələk edir, buğda dəni axtarırdılar. Buğda dəni tapan qızlar sevinclərindən qışqırırdılar. Onlara elə gəlirdi ki, buğda dəni tapan qız tezliklə ərə gedəcək.

## Köhnə və yeni ənənələr

Dünyanın əksər xalqlarının maraqlı, bir-birindən fərqli Yeni il qarşılama ənənələri var. Məsələn, italyanlar Yeni il bayramı ərəfəsində öncə mənzillərindəki bütün köhnə əşyaları pəncərədən küçəyə tullayırlar. Köhnə əşyaların yerini təzə alınmış mebellər tutur.

Yaponlar hesab edirlər ki, Yeni ilin ilk saniyələrindən başlayaraq gülmək adama uğur gətirir. Yaponiyada Yeni il gecəsi 108 dəfə zəng çalmaq adəti mövcuddur. Qədim inanclara görə, vurulan hər bir zəng insan qüsurlarından birini "öldürür". Yaponlar hesab edirlər ki, insanın altı qüsuru olur: simiclik, axmaqlıq, qəzəb, yelbeyinlik, qətiyyətsizlik, paxıllıq. Və bu qüsurların hər birinin 18 müxtəlif çaları mövcuddur. Yaponlar Yeni ildə öz yaxınlarına məhz bu qüsurlardan azad olmalarını arzulayırlar. 6-nı 18-ə vuranda 108 alınır. 108 rəqəmi və bu qədər zəng çalmaq ənənəsi də məhz buradan yaranıb.

Çində də Yeni il bayramı qədimlərdən bəri böyük təmtəraqla, atəşfəşanlıqla qeyd edilir. Çinlilər bununla ümid edirlər ki, Yeni ilin gəlişinə mane olmağa cəhd edən şər qüvvələri qovurlar. Avropalılardan fərqli olaraq çinlilər yolka bəzəmirlər, əvəzində bayram süfrələrinə narıngi və portağalla dolu məcməyilər düzürlər.

Yeni il bayramı polyak xalqının da sevimli bayramıdır. Polyaklar Şaxta babanı Silvestr Klaus adlandırırlar. Onların inancına görə, bu, həmin Silvestr adlı məşhur nağıl qəhrəmanıdır ki, Leviafan adlı vəhşiyə qələbə çalaraq həmvətənlərini dəhşətli bəlalardan xilas edib.

Avstraliyada da Yeni il şənlikləri kifayət qədər ekzotik keçirilir. Qar, şam ağacı, maral və bayramın digər ənənəvi atributlarının olmaması səbəbindən Şaxta baba Sidney çimərliyində parlaq rəngli üzgüçülük kostyumunda peyda olur. Bununla belə, "Köhnə dünya"nın ənənələrinə uyğun olaraq Şaxta babanın mütləq ağ saqqalı və qırmızı papağı olur.

Yeni il axşamı açıq səma altında atəşfəşanlıqların keçirildiyi müxtəlif ictimai məkanlara baş çəkmək ənənəyə çevrilib.

Onu da qeyd etmək yerinə düşər ki, 1927-ci ildə Milad bayramı keçmiş SSRİ məkanında rəsmi bayram kimi ləğv olunmuşdu. 1936-cı ildən isə Yeni il təqvim ili kimi qeyd edilir. O zaman keçmiş ittifaqda Yeni il iki gün ərzində bayram edilirdi. Rusiyanın indiki rəhbərliyi isə Yeni il tətillərini 10 günə çatdırıb ki, bundan da sadə insanlar öz istirahətləri üçün istifadə edirlər. Üstəlik, ruslar 13 yanvarda "Köhnə Yeni ili" də qeyd etməkdən vaz keçmirlər.

Dünya xalqlarının bir çoxunda, xüsusən də, Afrikada Yeni ilin qarşılanması gecəsi fit və çəpik çalmaq, hay-küy qoparmaq, tullanıb-düşmək, haray-həşir salmaq adət-ənənələri vardır. Yəqin ki, bu ənənələr bütpərəstlik zamanından mövcuddur. Qədim insanlar ecinnələri və digər şər qüvvələri qovmaq üçün bu üsullara əl atırdılar.

## Bayramın əsas atributu –yolka!

Yeni ilin ayrılmaz atributu Rusiyada, Şimali Amerikada, ümumiyyətlə, dünya dövlətlərinin çoxunda şüşə və plastik oyuncaqlarla, şamlarla və şirniyyatla bəzədilmiş yolkadır. Yolka bayram dövründə mənzillərdə, yaxud böyük şəhərlərin iri meydanlarında qurulur. Bayram ərəfəsində ağacların bəzədilməsinin başlanğıcı Misir fironlarının dövrünə təsadüf edir. Həmin vaxtlarda qədim Misir küçələrindəki palma ağaclarını bəzəyirdilər. Bizim eramızda Avropa ölkələrində Milad bayramı münasibətilə küknar ağaclarını alma, qoğal və şamlarla bəzəməyə başlamışdılar. Adamın heç inanmağı gəlmir ki, nə vaxtsa yolkanı başı üstə qururdular. Bayram qurtarandan sonra uşaqlara ağacdakı meyvələri və şirniyyatı yığmağa icazə verirdilər.




Yolka qurmaq ənənəsi Almaniyadakı Reyn çayının sahillərindəki Elzas əyalətində qoyulub. XVI əsrdə burada Milad yolkası qurmağa başlamışdılar. Bəzən də Milad ağacını tavandan başı aşağı asırdılar. Almaniyada Milad bayramında uşaqlar üçün mizlərin üstünə hədiyyələr düzürdülər. Bu ölkədə ilk əvvəllər yolkanı yalnız şəhərlərdə qururdular, sonralar əyalətlərdə belə ənənə formalaşmışdı. 1820-ci ildə Praqada, XIX əsrin başlanğıcında isə Skandinaviya ölkələrində şəhər meydanlarında yolkalar qurulmuşdu. Yolka qurmaq adəti cəmiyyətin yüksək təbəqələrindən gəlirdi. Məsələn, İngiltərədə yolkanı 1760-cı ildə ilk dəfə olaraq kral III Georqun arvadı bəzəmişdi, sonralar isə kraliça Viktoriya özünün milliyyətcə alman olan əri Albert ilə Vindzor şəhərində uşaqlar üçün yolka qurmuşdu.

Vyanada Müqəddəs Stefan kilsəsində quraşdırılmış "Sülh Zəngi"nin təntənəli sədalarını dinləmək burada Yeni ilin yazılmamış qanunlarından biri hesab olunur. Dekabrın 31-də Kilsə meydanına minlərlə insan toplaşır. Keçmişdə bu ölkədə Yeni il günü bacatəmizləyənlə qarşılaşmaq, ona toxunmaq və paltarına ləkə salmaq yaxşı əlamət sayılırdı. Hesab olunurdu ki, bu, böyük xoşbəxtlik və uğur gətirir.

Rusiyada da qədimdən bayram yolkası bəzəməyi çox sevirlər. Əvvəllər yolka qurmaq ənənəsi burada da şəhərlərdə yaranmışdı, sonra kəndlərə də sirayət etmişdi. Əvvəl yolkanı kənd məktəblərində qururdular, sonralar isə kəndli evlərində də yolka qurmağa başlamışdılar. XIX əsrin alman mühacirləri yolka bəzəmək ənənəsini Amerikaya da aparıb çıxarmışdılar. Okeanın o tayında ilk dönəmlərdə yolkanı meydanlarda da qururdular.

Böyük Britaniyada Yeni ildə evi yolka ağacının budaqları ilə bəzəyirlər. Adətə görə, Milad ərəfəsində kişilərin bayram yolkasının ətrafında hər hansı bir qızı öpməyə hüququ çatır. Bu ölkədəki qədim ənənələrdən biri də milad oduncağıdır. Deyilənlərə görə, bu adəti İngiltərəyə vikinqlər gətirib. Onlar Miladda böyük ağac kəsirlər. O, bütün il boyu qalır və büsbütün quruyur. Yalnız növbəti Miladda onu evə gətirirlər və bu odun uzun müddət yanır.

## Ən arzuolunan qonaq – Şaxta baba!

Bəllidir ki, Yeni il şənlikləri turistləri cəlb etmək üçün yaxşı fürsət hesab olunur. Buna görədir ki, bir çox ölkələr bayramın əsas rəmzlərindən olan Şaxta babaya "sahib çıxmağa" cəhd edirlər. Ən çox da şimal xalqları iddia edirlər ki, ilk Şaxta babalar məhz onların ölkəsində peyda olublar.

Məsələn, finlər bütün dünyaya car çəkirlər ki, Santa Klaus, yəni Şaxta baba onların həmvətənidir. Onların inanclarına görə, Santa Klaus Finlandiyanın qütb dairəsinə yaxın ərazilərdəki hündür küknar ağacları ilə əhatə olunan, bəmbəyaz qardan "ağ libas" geyinmiş Laplandiya adlanan möcüzəli bir yerdə yaşayır. Finlər düşünürlər ki, Santa Klaus hər il dünya ölkələrinə səyahətini məhz Laplandiyadan başlayır.

Finlandiyada Yeni il şənlikləri dekabrın 25-dən, yəni Milad bayramı günündən başlanır. Dekabrın 31-i, Yeni il axşamı isə ölkə paytaxtı Helsinkidə nağıl və əsatir qəhrəmanlarının libaslarını geyinmiş həvəskar aktyorlar teatr məzhəkələri göstərirlər. Həmin gecə hədiyyə dolu xurcunu ilə Santa Klaus şimal marallarına qoşulmuş xizəkdə Helsinkinin mərkəzi meydanına təşrif buyurur. Meydanda dərhal alqış səsləri eşidilir, şən mahnı sədaları ətrafa yayılır. Məhz fin təbliğatının nəticəsidir ki, bayram günlərində dünyanın hər yerindən Santa Klausun vətəninə – Finlandiyaya, həqiqətən, çoxlu turist gəlir.

Yeni ili "Laplandiya"da keçirən əcnəbi qonaqlar etiraf edirlər ki, burada bayram etməyin ayrı səfası var! Özünüzü bu əlvan rəngbərəng oyuncaqlar bərq vuran Yeni il yolkasının başına dolanan uşaqların, övladlarına baxıb sevinən gənc ata-anaların və bir-birini sevən gənclərin yanında hiss edin. Göydən isə iri, yupyumru qar dənələri ələnir. Heç kəs soyuğu, şaxtanı vecinə almır. Hamı gülür, sevinir. Romantik səhnədir, deyilmi?

Yeni il günlərində ənənəvi turist ölkəsi olan Fransa həmişəkindən də çox qonaq-qaralı olur. Turistlər Parisdə Eyfel qülləsinin ətrafında keçirilən bayram atəşfəşanlığını müşahidə etməyi lap çox sevirlər. Fransada Şaxta babanı "Noel ata" adlandırırlar. Noel ata bayram günlərində uşaqlara çoxlu hədiyyələr paylayır. Uşaqlar da onun şəninə gözəl şeirlər deyir, şən mahnılar oxuyurlar.

Yeri gəlmişkən, fransızlar bayram günlərində çox səxavətli olurlar. Onlar belə günlərdə turistləri həvəslə məşhur fransız şərabına qonaq edirlər. Bəllidir ki, Fransa şərab ölkəsidir, şərabının dadına isə söz ola bilməz. Turistlər də, təbii ki, vətənlərinə qayıdanda fransızların onları şəraba qonaq etmələri barədə fəxrlə söz açırlar.

Bəli, Yeni il özü ilə yeni arzular, yeni ümidlər gətirir. İnsan arzuları isə bitib-tükənmədir. Hər kəs bayram günlərində doğmalarına ən xoş arzu və təbriklərini çatdırmağa çalışır. Axı hər bir xoş sözün, ürəkdən deyilmiş təbrikin ecazkar təsir gücü var. Elə bayramlar da insanların həyata bağlılıqlarını artırmaq, onları sevindirmək üçün deyilmi?! Belə bir deyim var ki, Yeni ili hansı əhval-ruhiyyədə başlasan, bütün ili həmin ovqatla başa vuracaqsan. Biz də oxucularımıza, bütün xalqımıza bu gözəl bayramı xoş ovqatla başlamağı, bütün arzularının çin olmasını diləyirik. Qoy 2017-ci il hər birinizin həyatında ən uğurlu illərdən biri olsun.

*Məsaim ABDULLAYEV,*
*Paşa ƏMİRCANOV,*
*Elçin ABBASOV,*
*"Xalq qəzeti"*